Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
23 oktyabr 2020-ci il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 48

AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ MALİYYƏ SABİTLİYİ DEPARTAMENTİ HAQQINDA

Ə S A S N A M Ə

B a k ı – 2020

1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Maliyyə Sabitiliyi Departamenti (bundan sonra – Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra – Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin qərarlarını, Mərkəzi Bankın daxili komitələrinin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyalarının yerinə yetirilməsi prosesində fəaliyyətini Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə əlaqələndirir.

2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi ölkədə maliyyə sektorunun sabitliyini və onun dayanıqlığını müəyyən edən amilləri qiymətləndirmək, sistem risklərini identifikasiya etmək, onların maliyyə sabitliyinə təsirini ölçmək məqsədilə stress-testlər aparmaq, risklərin neytrallaşdırlması üzrə siyasət alətlərini formalaşdırmaq, həyata keçirilən maliyyə sabitliyi siyasətinin təsirlərini təhlil etmək üçün analitik diaqnostika çərçivəsini inkişaf etdirmək, habelə ölkədə maliyyə vasitəçilyinin genişlənməsinə, dərinləşməsinə və effektivliyinin artırılmasına yönəlmiş inkişaf siyasətini müəyyən etməkdən ibarətdir.

3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. maliyyə bazarlarının sabitliyinə və dayanıqlığına təsir edə biləcək riskləri və kövrəklik zonalarını müəyyən edir, qiymətləndirir və monitorinqini həyata keçirir, risklərin neytrallaşdırılmasına dair siyasət təkliflərini formalaşdırır;

3.2. aidiyyəti departamentlər ilə razılaşdırmaqla maliyyə bazarlarının makro stress testlərini ("top-down") aparır və onların metodologiyasını hazırlayır;

3.3. makroprudensial alətlərin tətbiqi ilə bağlı qiymətləndirmələrin aparılmasında və makroprudensial siyasətin müəyyən edilməsində iştirak edir;

3.4. normativ xarakterli aktların tələbləri əsasında sistem əhəmiyyətli maliyyə institutlarının siyahısını müəyyən edir və təsdiq edilməsi üçün təqdim edir;

3.5. maliyyə sektorunda inkişaf tendensiyalarını təhlil edir, inkişafı ləngidən amilləri müəyyən edir və onların aradan qaldırılması və ümumilikdə ölkənin yeni inkişaf prioritetlərinə uyğun olaraq maliyyə sektorunun uzunmüddətli inkişafı və maliyyə inklüzivliyinin artırılması üzrə təkliflər hazırlayır;

3.6. maliyyə sektorunun rəqəmsallaşması və rəqəmsal maliyyə texnologiyalarının (finteklərin) tətbiqi siyasətinin müəyyən edilməsində iştirak edir;

3.7. səlahiyyətləri daxilində xarici tənzimləyicilər və beynəlxalq təşkilatlar, maliyyə qurumları ilə qarşılıqlı əlaqə qurur;

3.8. Departamentin strateji və əməliyyat planlarını, büdcə layihəsini hazırlayır, təsdiq olunmuş planların icrasını təmin edir;

3.9. Departamentə daxil olan müraciət və sorğulara cavablar hazırlayır;

3.10. rəhbərliyin tapşırığı ilə Departamentin fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələrdən ibarətdir:

4.1.1. Maliyyə sabitiliyinin təhlili və modelləşdirmə şöbəsi;

4.2.1. Maliyyə sektorunun inkişafı və innovasiyalar şöbəsi;

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departamentin direktoru Mərkəzi Bankın İdarə Heyəti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur. Departamentin direktoru öz fəaliyyətini Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq olunmuş vəzifə təlimatına əsasən həyata keçirir.

4.3. Departament direktorunun müavini və departamentin şöbə rəisləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar. Departament direktorunun müavini və departamentin şöbə rəisləri öz fəaliyyətlərini Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq olunmuş vəzifə təlimatına əsasən həyata keçirirlər.

4.4. Departament direktoru işdə olmadıqda, onun səlahiyyətlərini departament direktorunun müavini, o da işdə olmadıqda rəhbərliyin müvafiq əmri ilə həvalə edilmiş şöbə rəislərindən biri icra edir.

4.5. Departamentin ştat cədvəli Mərkəzi Bankın sədri tərəfindən təsdiq edilir.

5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

5.1. Maliyyə sabitiliyinin təhlili və modelləşdirmə şöbəsi:

5.1.1. maliyyə sabitliyinə təhdid yaradan riskləri müəyyənləşdirir, onların təhlili, qiymətləndirilməsi və monitorinqini aparır və neytrallaşdırılması ilə bağlı təklifləri formalaşdırır;

5.1.2. beynəlxalq və ölkə daxili maliyyə bazarları üzrə trend təhlillərini aparır;

5.1.3. maliyyə bazarları üzrə sistem risklərini qiymətləndirmək üçün stress-testlərin və müxtəlif parametrli modellərin qurulmasını təmin edir;

5.1.4. sistem böhranı üzrə ilkin xəbərdarlıq göstəricilərini müəyyən edir və uyğun çərçivənin qurulmasını təmin edir;

5.1.5. makroprudensial alətlərin tətbiqi ilə bağlı qiymətləndirmələrin aparılmasında və makroprudensial siyasətin müəyyən edilməsində iştirak edir;

5.1.6. sistem əhəmiyyətli maliyyə institutlarının siyahısını müəyyən edir;

5.1.7. bank, sığorta şirkətləri və maliyyə bazarının digər iştirakçılarının maliyyə dayanıqlığını qiymətləndirir və risk reytinqini müəyyən edir;

5.1.8. maliyyə bazarları üzrə makro stress-testləri (“top-down”) həyata keçirir, müxtəlif makroiqtisadi amillərin və xarici şokların maliyyə sabitliyinə təsirinin qiymətləndirilməsi üçün simulyasiyaları aparır;

5.1.9. maliyyə bazarları üzrə şəbəkə əlaqələri, konsentrasiyaları, müştərək risklər və yoluxma risklərini identifikasiya və təhlil edir;

5.1.10. maliyyə bazarlarının inkişafı və risklərinin ölçülməsi məqsədilə müvafiq maliyyə sabitliyi indikatorlarını müəyyən edir;

5.1.11. Maliyyə Sabitliyi Hesabatının hazırlanmasını təmin edir;

5.1.12. maliyyə bazarlarının sabitliyinin təmin edilməsi üçün aparılan analitik qiymətləndirmələr, təhlil və stress-testlərə dair dövri hesabatlar hazırlayır, onların Mərkəzi Bankın rəhbərliyinə, müvafiq komitələrə və əlaqəli departamentlərə təqdim edilməsini təmin edir;

5.1.13. maliyyə sektoru və maliyyə sabitliyi məsələləri ilə bağlı rəhbərlik üçün çıxışlar, təqdimatlar, görüşlər və digər tədbirlər üçün materialları hazırlayır;

5.1.14. maliyyə bazarları üzrə prudensial çərçivənin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti departamentlərə dəstək göstərir;

5.1.15. maliyyə sabitliyi üzrə müvafiq təhlil və qiymətləndirmələrin həyata keçirilməsi üçün zəruri olan hesabatları mütəmadi şəkildə aidiyyati departamentlərdən əldə edir;

5.1.16. şöbəyə daxil olan müraciət və sorğulara cavablar hazırlayır;

5.1.17. rəhbərliyin tapşırığı ilə fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

5.2. Maliyyə sektorunun inkişafı və innovasiyalar şöbəsi:

5.2.1. maliyyə sektoru üzrə inkişaf tendensiyalarına dair müxtəlif diaqnostik qiymətləndirmələr və təhlillər aparır, inkişafı ləngidən amillərin aradan qaldırlmasına dair müvafiq təkliflər hazırlayır;

5.2.2. maliyyə sektorunun inkişaf prioritetləri üzrə beynəlxalq təcrübəni öyrənir, ölkənin milli inkişaf prioritetləri nəzərə alınmaqla məqbul modellərini və mexanizmlərini tədqiq edir və onların ölkədə tətbiqinə dair təkliflər verir;

5.2.3. maliyyə sektoru və onun seqmentləri üzrə müxtəlif tematikalarda cari vəziyyəti qiymətləndirir, oxşar ölkə klasterləri ilə müqayisələr aparır, mövcud çatışmazlıqlarını aradan qaldırılması üçün həll yollarını müəyyən edir;

5.2.4. maliyyə sektorunda rəqəmsal maliyyə xidmətlərinin və rəqəmsal maliyyə texnologiyalarının tətbiqi üzrə təşviq mexanizmlərinə dair təkliflər hazırlayır, siyasət təşəbbüslərinin hazırlanmasında iştirak edir;

5.2.5. maliyyə, o cümlədən ödəniş xidmətlərinə çıxışla bağlı problemlərin diaqnostikasını aparır, bu sahədə uğur təcrübələri hesab olunan dövlətlərin siyasət tədbirlərini öyrənir, müvafiq siyasət təklifləri hazırlayır;

5.2.6. dövlət proqramları üzrə müəyyən edilmiş tədbirlər planlarının icrasında iştirak edir;

5.2.7. maliyyə sektorunun inkişaf məsələləri ilə bağlı beynəlxalq təşkilatlar və yerli qurumlar tərəfindən daxil olan sorğuların cavablandırılmasını təmin edir;

5.2.8. şöbəyə daxil olan müraciət və sorğulara cavablar hazırlayır;

5.2.9. rəhbərliyin tapşırığı ilə fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

6. Yekun müddəa

Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

Mərkəzi Bankın sədri **Elman Rüstəmov**